# Aydınlıq yağışı yağırdı

(reportaj)



**...Çən-çisəkdir. Xırdaca-xırdaca yağan yağış yeri isladır, küçələri isladır, tələsənləri yolundan eləyə bilmir. Bu nə gözlənilməz yağışdır belə? Təbiətin neçə on illər əvvəl olanlara qəzəbi, hiddətidirmi? Xalqın general ömrünə ehtiramıdırmı?**

Xırdaca-xırdaca yağış yağır...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən tam artilleriya generalı Səməd bəy Mehmandarovun 160 illiyinə həsr olunmuş kütləvi hərbi vətənpərvərlik mərasimi keçirilir. Müdafiə nazirinin təsdiq etdiyi plana uyğun olaraq, Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin, Mədəniyyət və Turizm Nazirliyinin və Gəncə Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən bu tədbirin ssenari müəllifi və rejissoru Əməkdar incəsənət xadimi, polkovnik Abdulla Qurbani yubileyi tam yeni formatda, tərtibatda təqdim edir. İri ölçülü monitorda zamanında tam artilleriya generalı Səməd bəy Mehmandarovun ömründən keçmiş məqamlar kadr biçimində əvəzlənir. Duyğusal kadrlardır...

Kadrda Səməd bəy Mehmandarovdur. O baxışların üstündən elə bil illər keçməyib. İkili təsvirlə alov dilləri işığına toplaşdığımız Səməd bəyi bürümək, qarşılamaq, yandırmaq, külə döndərmək istəyir. Bacarmır. Bacarmaz da. Ömrünü xalqı üçün, milləti üçün, dövləti, dövlətçiliyi üçün yaşayanlara yadların alovu kar eləyə bilməz. Bu ömür müstəqilliyimiz naminə ocaq olmuşdu. Bu biçim ömür ocağına belə cılız od nə eləyə bilər ki. Abdulla Qurbaninin bədii təfəkküründən dikələn mətləb belədir...

Aparıcılar -Abdulla Qurbani və Xalq artisti Pərvanə Qurbanova şeirləşdirilmiş mətləbləri bəyan elədikcə monitorda Səməd bəy görünür. Nə deyir aparıcılar?
-

Vaxtında o da bir Cavad xanıydı,
Ay ellər, Səməd bəy Gəncəyə gəlir!

Azərbaycan adlı sözün eşqinə,
Ay ellər, Səməd bəy Gəncəyə gəlir!

Gözümüzün nuru Qarabağ üçün,
Ay ellər, Səməd bəy Gəncəyə gəlir!

Səməd bəy Mehmandarov qarşılaşdığı cavanlarla kəlmələşir...

Səməd bəy Mehmandarov bir körpəni oxşayıb əzizləyir...

Monitorda gülləri qönçəsindən boy göstərən çəmənliklər görünür. Bayaqkı alov kimi bu da rəmzdir. Tam artilleriya generalı Səməd bəy Mehmandarovun görə bilmədiyi bugünkü müstəqilliyimizə işarədir. Gülaçma yenidən müstəqil olduğumuzun analogiyası, rəmzi kimi təqdim olunur. Tədbirə gələnlər bunu belə də qəbul edirlər. Yerə-göyə sığmayan alqışların boyuna küsənirəm...

Aparıcılar iftixar ünvanlarımızdan olan generalın ömür yolundan danışır: yaponlarla müharibədə əliyalın insanların güllələnməsinə imkan vermədiyini bildirirlər, Port-Artur qəhrəmanı olduğunu, zamanında İngiltərə hökuməti onu ordenlə təltif etdiyini, ingilislər Azərbaycan Xalq Cümhuriyyətinə düşmən kəsiləndə həmin ordeni geri qaytardığını deyirlər, Vətən sevgisinin nəhayətsizliyindən söz açırlar...

Hərbiyyə naziri təyin olunanda xalqa müraciəti səsləndirilir. Toplaşanlar duyğulanır. Adilikdə qeyri-adi olan bu müraciət zamanında vətənpərvərlik çağırışı olub. İndi də həmin gücdədir: "Əziz Vətənimizin adına müraciət edirəm, gözəl Vətənimiz Azərbaycan eşqinə, yüksək vətənpərvərlik hissləri naminə mənə qoşulmağınızı xahiş edirəm...”...

Müraciətdə “mən” Vətən kəlməsinin özüdür - “Vətənə qoşulmağınızı xahiş edirəm” kimi səslənir. Mətn monitorda da izlənilir. Yeri gəlmişkən, həm eşitmə, həm görmə, həm də duyma bu tədbirin düşüncələrə hopmasını asanlaşdırır. Yanaşı oturduğum kişinin pıçıltısını eşidirəm: “O vaxtlar yaşasaydım, bu müraciətdən sonra evdə oturmazdım...”...

Könülxoşluğu ilə ona baxıram. Gülümsünür: “O vaxtlar Səməd bəyin əsgəri atam olub. Qarabağ naminə döyüş başlasa mən də əsgər olacağam!” - deyir. Nə fərqi, milyonlarla azərbaycanlı kişisindən biridir...

Azərbaycanımızın hərb tarixində qürurla, ehtiramla səslənən bu adın işığı Gəncə Olimpiya Kompleksinə sığmır. Hər sözü kəlam gücündə olan 160 yaşlı bu tarixi şəxsiyyətin təvazökarlığını sezmək çətin deyil. 1919-cu ildə Lənkəranda qiyamın necə yatırılması haqqında toplaşanların müəyyən məlumatı var. Bu general Səməd bəy Mehmandarov aparıcının xatırlatmasına o qədər səmimi münasibət bildirir ki...

Tədbir teatrlaşdırılmış formatda keçirildiyindən generalın həyat yoldaşını da görürük, oğlunu da. Rus imperiyası Azərbaycan Demokratik Respublikasını ilhaq edəndən sonra həyat yoldaşı təkid edir ki, getmək lazımdır. Vətəndən uzaqlara, bəlkə də naməlumluğa. Getmir general. “Bu çətin gündə Vətəndən ayrılmağa heç bir əsasım yoxdur...” - qətiyyəti ilə, “Biz olmasaq da müstəqil Azərbaycan olacaq!” -inamı ilə...

Cümhuriyyət ordusu görününcə generalın gözləri dolub-boşalır.Yaratdığı ordunun yaşarlığına sevinir, mətinliyə, döyüş və psixoloji hazırlığının yüksək səviyyəsinə sevinir. Kompleks boyunca bayraqlar dalğalanır. Səməd bəy xalqımız üçün, dövlətimiz, dövlətçiliyimiz üçün yaşadığı illərdən qürur duyur. O da tamaşaçılarla bir sırada bir daha enməyəcək bayrağımıza qədərsiz inamla baxır. O bayrağı dalğalandıran əsgərlərimizə baxır...

...Rəqsin çılğınlığı alqışlarla tamamlanmaqda ikən görüntülərdən heyrətə gəlirik - rəqqaslar piramida yaradır. Altı rəqqasın çiyinlərində dörd rəqqas, sonda bir rəqqas. Bu, rejissorun (A.Qurbani) bədii yozumunda qürur pyedestalıdır. Və... bayrağımız ucalıqda qədərsiz qürurla dalğalanır. Bu məqamın yozumu Vətənin istəyidir, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq, bayrağımız işğaldan azad edəcəyimiz torpaqlarımızda da dalğalanacaq. Onsuz da bayaqdan bəri gördüklərindən, eşitdiklərindən, duyduqlarından duyğulanmış general Səməd bəy Mehmandarovun baxışları bu ucalıqdan üzülmür... Abdulla Qurbaninin bədii təfəkkürü xoreoqrafik elementləri məfkurəyə çevirə bilir - azərbaycançılıq ruhumuzun məfkurəsidir.







Tədbir boyu Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının, nümunəvi orkestrin üzvlərinin, habelə tanınmış vokalist Ramil Qasımovun ifasında mahnılar təqdim olunur. Ansamblın solistlərinin ifasında rəqslər hamıya könülxoşluğu verir.

Hələ Cümhuriyyət dövrünün hərbi marşları...

Hələ Səməd bəyin general Əliağa Şıxlinski ilə səssiz-sözsüz mükaliməләşməsi...

Hələ Abdulla Qurbaninin rejissurasında görüntülərin mətləb yozumu...

Hələ bu il cəbhə bölgəsində erməni helikopterini vuran əsgərin tam artilleriya generalı Səməd bəy Mehmandarova məruzəsi, qibtəedilləcək görüşləri...

Tədbirdə general-leytenant Heydər Piriyev, general-leytenant Rövşən Əkbərov, general-mayor Rasim Əliyev də iştirak edirlər. Tədbir iştirakçıları tam artilleriya generalı Səməd bəy Mehmandarov ömrünə belə bir ehtirama görə onları səmimiyyətlə salamlayır. Tədbirin sonunda bu generalların çıxışları toplaşanları əmin edir ki, belə ömürlər həqiqətən yaşarı ömürdür...

Gəncə şəhəri Nizami Rayon İcra Hakimiyyətinin başçısı Nizami Hacıyev yubiley münasibətilə tədbir iştirakçılarını təbrik edir...

Abdulla Qurbaninin son kəlmələri bir mətləbə yaşam verən kəlam təsirindədir: kişi kimi yaşamaq hər adama nəsib olmur, cılız ömürlərdən fərqli olaraq kişi ömrünün işığı illərə bac vermir...

Tam artilleriya generalı, ilk hərbiyyə nazirimiz Səməd bəy Mehmandarovun 160 illik yubileyidir.

Aydınlıq yağışı yağır...

**Rəşid Faxralı**